# Kiçik yaşlı məktəblilərdə ictimai fəallığı inkişaf etdirmək üçün istifadə olunan metodlar

**Günay Nasir qızı İbadova**
Bakı Qızlar Universiteti
**E-mail:** gunayibadova98@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
p.ü.f.d., dos. P.M. Həsənova

**Açar sözlər:** metod, müşahidə, pedaqoji təhlil, eksperiment, fəaliyyət, elm, inkişaf, şəxsiyyət

**Ключевые слова:** метод, наблюдение, педагогический анализ, эксперимент, деятельность, наука, развитие, личность

**Key words:** method, observation, pedagogical analysis, experiment, activity, science, development, personality

Şəxsiyyətin mühüm keyfiyyətlərindən biri də ictimai fəallıqdır. Şəxsiyyət məhz fəaliyyət zamanı formalaşır. Aktiv fəaliyyət zamanı şagird öz bilik, bacarıq, qabiliyyət, təşkilatçılıq və s. kimi keyfiyyətlərindən istifadə edir. Kiçik yaşlı məktəblilərdə isə bu müəllimin rəhbərliyi nəticəsində təkmilləşir. "Fəallıq" sözü latınca "activus" sözündən götürülüb, mənası fəal, işgüzar, çalışqan deməkdir. Fəallıq insanın məqsədinə, öz tələbatlarına uyğun olaraq ətraf mühiti dəyişmək qabiliyyətidir. İnsan üçün ən əhəmiyyətli fəallıq məhz ictimai fəallıqdır. İctimai fəallıq həm elmi-nəzəri, həm də praktik əhəmiyyət kəsb etdiyi üçün bir çox elm sahələrində, o cümlədən, pedaqogikanın, psixologiyanın və sosiologiyanın tədqiqat obyektinə çevrilmişdir.

Kiçik yaşlı məktəblilərdə ictimai fəallığın tərbiyə olunması prosesi aktuallıq daşıyır. İctimai fəallığın formalaşdırılması prosesinin səmərəli şəkildə təşkil olunması fəaliyyət zamanı müəyyən prinsiplərin nəzərə alınmasından asılıdır. Kiçik yaşlı məktəblilərdə ictimai fəallığın formalaşdırılması və inkişaf prosesində məktəb müəllimi, rəhbər, valideyn müəyyən prinsipləri əsas götürərək bu fəaliyyətlə məşğul olmalıdırlar. Kiçik yaşlı məktəblilərdə ictimai fəallığın formalaşdırılmasında istifadə olunan prinsiplər dedikdə, kiçik yaşlı məktəblinin tərbiyəsinin məzmunu və təşkilini şərtləndirən tələb və müddəalar başa düşülür.

Prinsip sözünün mahiyyətinə nəzər salaq. Prinsip latıncada prinsipium sözündən götürülüb, mənası "əsas", "bünövrə", "təməl" deməkdir. Prinsip hər hansı bir nəzəriyyənin əsasını ifadə edən bir müddəadır, faktların fikirdə bir sistem şəklində birləşməsidir.

Kiçik yaşlı məktəblilərdə ictimai fəallığın formalaşdırılması işində istifadə olunan metodları nəzərdən keçirməmişdən əvvəl metod sözünün mahiyyətini nəzərdən keçirək. Metod yunanca "methodos" sözündən götürülüb, "davam etmək", "izləmək" mənasını verir. Ərəbcədən "üsul" sözü ilə eyni mənaya gəlir. Metod qarşıya qoyulmu məqsəddən asılıdır. İctimai fəallığın formalaşmasında düzgün seçilmiş və düzgün tətbiq olunmuş metodlar işin səmərəli nəticə verməsinə səbəb olur. Metodların düzgün seçilməsi və düzgün tətbiq olunması üçün məktəb rəhbəri, müəllim və valideynlər ictimai fəallığın formalaşdırılması işinin məzmununa, məqsəd və vəzifəsinə, işin mahiyyətinə bələd olmalıdırlar. İctimai fəallığın formalaşdırılması işində istifadə olunan metodlar dedikdə, müəllim ilə şagird arasında qarşılıqlı fəaliyyətin təşkili zamanı müəllimlərin müəyyən metoddan istifadə edərək şagirdlərdə ictimai fəallığın formalaşdırması üsulu nəzərdə tutulur. Metodlar işin məqsəd və məzmunu ilə müəyyənləşir. Me-

tod haqqında bir çox pedaqoqlar fikir söyləmişlər. Professor A.N. Abbasov yazır: Ümumi anlamda metod müəyyən bir məqsədə nail olmağa yönəlmiş fəaliyyət sistemidir (3, s. 26). Kiçik yaşlı məktəblilərdə ictimai fəallıq tərbiyəsinin formalaşmasında istifadə olunan metodlar aşağıdakılardır: inandırma metodu; alışdırma metodu; rəğbətləndirmə və cəzalandırma metodu.

İnandırma metodu kiçik yaşlı məktəblinin şüuruna təsir etməklə onda ictimai fəaliyyətə qarşı düzgün təsəvvürlər, özünə inam yaratmaqdan ibarətdir. Bu metod vasitəsilə kiçik yaşlı məktəblilər ictimai fəaliyyət zamanı özünü necə aparacağını, verilən ictimai tapşırığı necə yerinə yetirəcəyini anlayır, yaxşı ilə pisi başa düşür. Metoda əsasən tərbiyəçi hər bir kiçik yaşlı məktəbli ilə ictimai fəallıqla bağlı əxlaqi söhbətlərin, mühazirələrin, müzakirələrin aparılması daxildir.

Alışdırma metodu fəaliyyətin təşkil olunaraq kiçik yaşlı məktəblidə ictimai davranış təcrübəsini formalaşdıraraq onda iradəni möhkəmlədir, düzgün davranışa xidmət edir. Bu metod sayəsində kiçik yaşlı məktəblidə ictimai tapşırıqların yerinə yetirilməsi zamanı dəqiqlik, kollektivçilik, fəallıq, təşkilatçılıq kimi müsbət keyfiyyətləri formalaşdırır. Tərbiyəçi xaraktercə eqoist olan kiçik yaşlı məktəbliyə elə bir ictimai tapşırıq verir ki, o kollektivin uğurunu düşünsün, kollektivə qayğı göstərərək çalışsın. Bu metod kiçik yaşlı məktəblilərdə xoşa gəlməyən hərəkətləri aradan qaldırıb, onları ictimai fəaliyyətə sövq edərək, onlarda müsbət keyfiyyətləri inkişaf etdirib fəallıq göstərməsinə kömək olur.

Rəğbətləndirmə və cəzalandırma metodu məktəb müəllimi, rəhbər, valideyn kiçik yaşlı məktəblinin fəaliyyətini və davranışını stimullaşdıraraq, onu yaxşı hərəkətlərə sövq edərək pis hərəkətlərdən çəkindirməyə xidmət edir. Kiçik yaşlı məktəblilər verilən ictimi tapşırığı uğurlu yerinə yetirdikdə və tərbiyəçi onu tərifləsə kiçik yaşlı məktəbli məmnunluq hissi keçirəcək və daha çox fəallıq göstərəcəkdir. Əksinə qeyri-fəallıq göstərən, verilən ictimai tapşırığı uğurla yerinə yetirməyən kiçik yaşlı məktəbli cəza aldıqda yenidən bu hərəkətə yol verməməyə, fəal olmağa çalışacaqdır. Deməli rəğbətləndirmə və cəzalandırma metodu kiçik yaşlı məktəblidə fəallığın formalaşdırılmasına kömək edir. Rəğbətləndirmə metoduna həvəsləndirmə metodu da deyilir. Bu metod kiçik yaşlı məktəblinin özünə inamı, hörməti və nüfuzunu artırır. Rəğbətləndirmə metodunda tərbiyəçi bəyənmək, tərifləmək, təşəkkür etmək, valideynə yazılı təşəkkürnamə vermək, mükafatlandırma, təltif etmək, valideynə razılıq məktubu göndərmək və s kimi növlərdən istifadə edə bilər.

Cəzalandırma metodunda tərbiyəçi kiçik yaşlı məktəblinin qeyri-fəallığına xoşagəlməz münasibət göstərdikdə kiçik yaşlı məktəbli məsuliyyət hissi daşıyaraq öz səhvlərini başa düşəcək, öz davranışını dəyişməyə can atacaqdır. Bu metodda tərbiyəçi danlamaq, töhmət və s kimi növlərdən istifadə edə bilər. Cəzalandırma metodundan məktəb rəhbəri, müəllimi və valideyn kiçik yaşlı məktəblinin fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Bu metoddan düzgün istifadə etmədikdə nəticə səmərə verməyəcəkdir.

**Məqalənin aktuallığı.** İctımai fəallıq şəxsiyyətin mühüm keyfiyyətlərindən biridir. Şəxsiyyət də məhz fəaliyyət zamanı formalaşır. Orta məktəblərdə şagird aktiv fəaliyyət zamanı öz bilik, bacarıq, qabiliyyət, təşkilatçılıq və s. kimi keyfiyyətlərindən istifadə edir. Təbii ki, bu proses ilk növbədə müəllimin rəhbərliyi nəticəsində təkmilləşir. Kiçik yaşlı məktəblilərdə ictimai fəallığın formalaşdırılması və inkişaf prosesində məktəb müəllimi, rəhbər, valideyn müəyyən prinsipləri əsas götürərək bu fəaliyyətlə məşğul olmalıdırlar. Bu məktəblilərdə ictimai fəallığın tərbiyə olunması prosesi mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alsaq, məqalə aktual hesab olunmalıdır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə kiçik yaşlı məktəblilərdə ictimai fəallığın formalaşdırılmasında istifadə olunan prinsiplərdən söhbət açılmaqla,

məktəblinin tərbiyəsinin məzmunu, eləcə də onun təşkilini şərtləndirən tələb və müddəalar göstərilir, bu zaman istifadə olunan metodların təsnifatı verilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası: orta ixtisas məktəbləri üçün dərslik. Bakı: Mütərcim, 2015, 324 s.
2. Abbasov A.N. Pedaqogika: orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013, 360 s.
3. Abbasov A.N. Pedaqogika: orta ixtisas məktəbləri üçün proqram. Bakı: Mütərcim, 2013, s.
4. Əliyeva Z. Şagird özünüidarəsinin inkişafına rəhbərlik, komsomol və pioner təşkilatlarının işinə köməklik // Azərbaycan məktəbi, 1995, № 12, s. 38.
5. Əliyev P.B., Əhmədov H.H. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı: ABU, 2006. 264 s.
6. Əliyev P.B., Əhmədov H.H. Təhsil müəssisələrində tərbiyə işinin təşkili. Bakı: ABU – «Təhsil», 2004, 220 s.
7. Əliyev P.B., Quliyeva S.Q., Həsənova S.H. və b. Ümumtəhsil məktəblərində tərbiyə işinin planlaşdırılması. Bakı: Nurlan, 2002, 132 s.
8. Əliyev R.İ. Psixologiya: Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Nurlan, 2008, 352 s.
9. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006, 200 s.
10. Əliyeva R.M. Sinifdənxaric vaxtlarda tələbələrin sosial fəallığının inkişaf etdirilməsi // Bakı Qızlar Universitetinin Elmi əsərləri, 2015, № 2, s. 94-98.

**Г.Н. Ибадова**

## Методы развития социальной активности младших школьников

## Резюме

Социальная активность - одно из важных качеств человека. Личность также формируется в процессе деятельности. В средних школах учащиеся активно развивают свои знания, навыки, умения, организованность и так далее. использует такие качества, как. Конечно, этот процесс совершенствуется в первую очередь под руководством учителя. В процессе формирования и развития социальной активности у младших школьников учителя, директора школ и родители должны заниматься этой деятельностью на определенных принципах. Учитывая важность процесса воспитания социальной активности у этих студентов, статью следует считать актуальной.

В статье рассматриваются принципы, используемые при формировании социальной активности учащейся молодежи, содержание обучения учащегося, а также требования и положения, определяющие его организацию, и дается классификация используемых методов.

**G.N. Ibadova**

## Methods used to develop social activity in young schoolchildren

### Summary

Social activity is one of the important qualities of a person. Personality is also formed during activity. In secondary schools, students actively develop their knowledge, skills, abilities, organization and so on. uses qualities such as. Of course, this process is improved primarily under the guidance of the teacher. In the process of formation and development of social activity in young schoolchildren, school teachers, principals and parents should be engaged in this activity based on certain principles. Given that the process of cultivating social activism in these students is important, the article should be considered relevant.

The article discusses the principles used in the formation of social activity in young schoolchildren, the content of the student's education, as well as the requirements and provisions that determine its organization, and provides a classification of the methods used.

**Redaksiyaya daxil olub:** 19.03.2021